# Böyük gürcü yazıçısı Mixeil Cavaxaşvilinin ev muzeyində

Mən Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi, hər zaman Azərbaycanın şair və yazıçılarının həyatı və yaradıcılığı haqqında danışanda qardaş gürcü xalqının klassik yazarlarının da həyat və yaradıcılığından bəhs edirəm. Bu dəfə də belə oldu. Mərhum şair Hüseyn Cavidin həyat və yaradıcılığı haqqında və onun repressiyaya düçar olması ilə bağlı danışanda həmyerlim Mixeil Cavaxaişvilini xatırladım. Və şagirdlərə anlatdım ki, Stalinin repressiya qurbanları arasında əsas yeri tutanlar həmin dövrün azad fikirli və müstəqil düşüncə sahibi olanlar idi.

Mixeil Cavaxişvili haqqında şagirdlərə ətraflı məlumat verdim:

“Böyük gürcü yazıçısı Mixeil Cavaxişvili 1880-ci ildə Borçalı qəzasının (indiki Marneuli rayonunun) Tserakvi kəndində anadan olmuşdur. Bu barədə yazıçının böyük qızı Ketevan Cavaxişvili «Atam barədə xatirələr» kitabında yazır: «Atamın doğulduğu və uşaqlıq illərini keçirdiyi Tserakvi kəndi o vaxtlar Borçalı qəzasında yeganə gürcü kəndi idi. İkinci gürcü kəndini babam Sabanı sonralar Tserakvi kəndi yaxınlığında salmış və adını da Sioni qoymuşdur». Ketevan Cavaxişvili daha sonra babası Sabanın azərbaycanlı və yunanlarla dostluq etməsindən, Azərbaycan dilində sərbəst danışmasından söhbət açır. O, başqa bir yerdə isə Mixeil Cavaxişvili anadan olanda Sabanın bu xəbəri Sadaxlıda eşitməsindən, qulluqçusu Abdulla ilə atı dördnala çaparaq evə tələsməsindən, yolda Abdullanın Azərbaycan mahnıları oxumasından sevə-sevə söhbət açır. O, daha sonra Abdullanın balaca Mixeili çox sevməsini, ona çoxlu Azərbaycan mahnılarını öyrətməsini, məhəbbət və xoşbəxtlikdən, kədərdən və talesizlikdən söhbət açmasını və həmin söhbətlərin bu körpə uşağın qəlbində əbədi bir iz buraxdığını qeyd edir. Atasından, qulluqçuları Abdulladan, eləcə də onun ailəsi ilə sıx təmasda olan azərbaycanlılardan Azərbaycan dilini öyrənən Mixeil Cavaxişvili öz tərcümeyi-halında sağlığında ikən bir neçə hekayəsinin Azərbaycan dilinə tərcümə olunduğunu yazır. Onu da qeyd etmək lazımdır ki, bu tərcümeyi - halda M. Cavaxişvili tatar (Azərbaycanlı - M. M.) sözünün üstündən xətt çəkərək türk dili sözünü yazmışdır. M. Cavaxişvili «Kvaci Kvacantiradze», «Cağoya sığınmışlar», «Qadın yükü», «Ağ yaxalıq», Arsen Marabdalı» romanlarının, «Günahsız Abdulla», «İki hökm», «Qivi Şaduri», «Ləmbəli və Qaşa», «Günah» və başqa hekayələrin müəllifidir. Təəssüf hissi ilə onu da qeyd etmək lazımdır ki, tale ona yar olsa idi, ürəkdən sevdiyi Şamil haqqında romanını və azərbaycanlılara, Borçalıya aid neçə-neçə əsər yazıb tamamlayardı. M. Cavaxişvili əsərlərinin əksəriyyətində doğma yurdu, Borçalı və onun mənzərələrini sevə-sevə qələmə almış, Azərbaycan və gürcü dostluğu onun yaradıcılığının əsas ana xəttini təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, M. Cavaxişvili yaradıcılığına ilkin başladığı dövrlərdə jurnalistik fəaliyyəti zamanı onun təxəllüslərindən biri də «Əli» olmuşdur.

Onun "Günahsız Abdulla" hekayəsi çox şöhrətli hekayədir. Sovet vaxtı Azərbaycanda da bu hekayə ekranlaşdırılıb. M. Cavaxişvili 1937- ci il Stalin repressiyaları zamanı güllələnmiş, yaradıcılığı 20 il qadağan olunub.

Mixeil Cavaxişvilinin faciəli, ancaq maraqlı həyat yolunu şagirdlərimə danışandan sonra şagirdlərdən gözəl bir təşəbbüs gəldi. Hamısı bir ağızla: “Müəllim, Mixeil Cavaxişvili hər şeydən əvvəl bizim yerlimizdir, necə ola bilər ki, ömrünü xalqlarımız arasında dostluğa və qardaşlığa bağlayan, bir çox görkəmli azərbaycanlılar kimi 1937-ci ilin qurbanı olan həmyerlimizin ev muzeyini ziyarət etməyək?”.

Kövrəldim. Düzü, təşəbbüs çox xoşuma gəldi.

Dekabrın 11-də yazıçının ev muzeyini ziyarətə getdik. Yazıçının xatirəsinə hörmət və ehtiram əlaməti olaraq, gürcü və Azərbaycan xalqlarının tarixi dostluq və qardaşlıq simvolu kimi muzeyin önünə həmişə yaşıl olan şam ağacı basdırdıq. Məktəblilər yazıçının həyat və yaradıcılığını əks etdirən eksponatlarla, yazıçının əlyazmaları ilə tanış oldular, xatirə şəkilləri çəkdirdik.

Bu tədbirin şagirdlərimin yaddaşında əbədi qalacağına ümid edirəm. Ümid edirəm ki, bu yazımı oxuyacaqsınız. Siz də mənim şagirdlərimin təşəbbüsünə dəyər verəcəksiniz, xalqımın dostu - gürcü klassik yazıçısı, repressiya qurbanı cənab Mixeilin ev muzeyini ziyarət edəcəksiniz, büstü önünə əklillər qoyacaqsınız. Çünki bizim yolumuz tolerantlıq yoludur. Dilindən, dinindən asılı olmayaraq müasir məktəblilər tolerantlıq yolu ilə addımlayarsa, gələcək nəsillər bir-biri ilə hörmət və məhəbbətlə davranarlar.

***Hümbət Fərəcov***
***Marneuli rayonunun Araplı ictimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi***